# Onlar Vətən uğrunda vuruşmuşlar

## Doğum günləri

Torpaqlarımızın işğaldan təmizlənməsi, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən



vətən müharibəsi şəhidlərindən Əmirvan kənd sakini, gizir Elvin Əbülfəz oğlu Abdurahmanovun



(1 oktyabr 1996-cı il), Dızaxlı kənd sakini əsgər Xeyirbəy Cəlil oğlu Səfərçinovun (5 oktyabr



1993-cü il), hərbi həkim, baş leytenant, Qəbələ şəhər sakini Aqşin Faiq oğlu Ənvərlinin (10 oktyabr 1994-cü il), MAXE kəşfiyyatçı Nic qəsəbə sakini Dəmirli Elşən Gündüz oğlunun 15 oktyabr 1998-ci il) doğum günləri təhsil şöbəsinin əməkdaşları, ictimaiyyət nümayəndələri, şəhidlərin təhsil aldığı məktəb kollektivi, ailə üzvləri və əzizləri tərəfindən anılaraq xatirələri yad edilmişdir. Şəhidlərin ailə üzvləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə razılıqlarını ifadə edərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

## Şəhidlik... ölümsüzlük

**Vətən mənə oğul desə**

Şəhərdə böyümüşdü. Kənd uşaqları kimi günəşi təbiət qoynunda qarşılamamış, dumanları dağ döşündə göylərə yola salmamışdı... Təbiət qoynunda kiçi-



cik ömrünün uşaqlıq çağlarını ən çox Bakı gözəlliklərini seyr etmişdi. Kənd həyatının qonağı olsa da Vətən qayalarının, Vətən dağlarının ətəklərində cığır açmamışdı. Ancaq kiçicik ömrünün o qədər əsrarəngiz gözəllikləri real görmək və dağların, dərələrin gözəlliklərinin qoynunda dincəlmək, yağı tapdağında olan torpaqlarımızın azad olunması və şəhidlərimizin qisasının alınması onu həmişə düşündürərdi. Bəlkə də ana laylasının Vətən tərənnümlü oxşamaları körpə ikən gəzintiləri ona Vətənimizin bütün bölgələrinə məhəbbət, istək oyatmışdı. Axı Vətən bölünməz, doğulduğu məkandan başlar. Xəzərin sularının tamaşasına dayananda dəniz də bütöv Azərbaycanın əksini əks etdirmiş, Badamdar "dağları" ona sal qayaların əzəməti kimi görsənmişdi. Onun xəyallarında yalnız bir fikir dolaşmışdı: - Vətən mənə oğul desə...

Vətən ona oğul dedi... Dar günündə oğullarına layiq olanlar vətən çağırışına qoşuldular və qisas müharibəsinin "müdavimləri" oldular.

Onların arasında idi Cavidan!

**Narahat ruhlar röyalara gələrdi...**

Cavidan Novruzun bayram töhfəsi idi ailəsinə... Baharda doğuldu bahar ömürlü igidim... O, 2000-ci ildə mart ayının 24-də Bakının Badamdar qəsəbəsində doğulmuşdu. 2006 - 2017-ci illərdə 236 saylı məktəbdə orta təhsil almışdı. 2017 - 2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Azərbaycan Ordusunun Ali Baş Komandanı, Azərbaycan Prezidenti İlham Əliyevin qisas

**(Ardı 6-cı səhifədə).**

## Bayraq laylası...

Ana laylasının həzinliyi yəqin ki, hər insanın qulaq yaddaşında... Ana laylasının şirinliyi hər insanın dad yaddaşında... Ana laylasının gecələr daha çox oxunmasına rəğmən gün işığı tək parıltısı, rəngi ifadə edilməyəcək bir əsrarəngizliyi ilə göz yaddaşında... Ana laylası çay səsi, şəlalə coşğusu, bulaq zümzüməsi kimi hər kəsin dil yaddaşında... İnsanın ta körpəlikdən yaşlı-ahıl çağlarında da laylay zümzüməsi onun bütün varlığını sarır və ürəyinə sirayət edir. Dünyaya göz açanda da, hətta dünyaya göz yumanda da insana ana və ana əvəzi doğmalar yaşından asılı olmayaraq ana laylası deyərlər. Kaş ki, bu laylalar körpə yuxusu üçün, həmçinin ana və nənə dilində yaşlandıqca belə, insanın saçlarını oxşamaqla əzizləmə mənasında oxuna!!!

Ana Vətən, Ana Torpaq - bu kəlamlarla hər birimiz rastlaşırıq hər zaman. Dilimizin ən başlıca sözü, devizi! Bəs ana bayraq kəlamı necə?! Bayraq aid olduğumuz ölkənin müqəddəs simvolu. Bəs onu ana adı ilə qoşalaşmış deyirikmi?! Hər kəs görür, hər kəs duyur bu məfhumu. Anaların baş tacı Bayraq! Qəhrəmanların qəhrəmanlıq rəmzi, igidlərin qan rəmzi bayraq! İnsanlıq zirvəsinə ucalanların kəfən donu! Qəhrəman şəhadətçilərimizin müqəddəs libası! Torpağa can verənlərin son geyimi, əzizlərinə ərmağan edilən müqəddəslik rəmzi, son oğul, övlad bəxşeyişi!

Bayraqlar qəhrəmanların keşikçisi - Simvolik keşikçisi! Bayraqların canlı olmasının heç şahidi olmusunuzmu?! Şahidisiniz, bilirəm, ancaq bu anlamı yaşamısınızmı, yaşayırsınızmı?!

Vətən insan övladına oğul deyərsə, oğullar ona qəhmər çıxaraq dar gününün yarağı olar, vətənləşər, mamır olub qayalarda bitər, ya da torpaqlaşarlar! Ruhən bir bayrağa dönüb cismi torpaqlaşsın deyə onlara həyat verənlərin əllərinə təqdim olunarlar son anda - oğul rəmzi kimi! Bu bayrağı qəbul edən valideynlərin müqəddəslik donunda necə "yumağa" döndüyünü görübsünüz! Bir gecəyə yaşlaşar onlar; cisimləri kimi al qanına boyanan övladlarının daşlaşan baxışlarını görən sonra... Əngin səmadan şəhid ruhlarını axtarar, onlarla danışarlar, onları əzizlərlər... Titrək barmaqlar gül libası geyinmiş şəhid məzarlarının baş daşından daşlaşan gözəl və gənc baxışları oxşar... Baxışlar toqqaşar, ağı dolu dillər danışar! Göz yaşı şəhid damarlarına axan qan kimi dolar... Ancaq əzizlər başlarını qaldırıb məzar başında dalğalanan müqəddəs bayrağı görən kimi qismən sakitləşər... Sanki övladlarının həyat dolu baxışlarını görərlər!..

Hər şəhid məzarının başının üstündə bir bayraq dalğalanır. Hər şəhid qapısında bir bayraq asılır və buranın igid məkanı olduğunun həyat göstəricisinə çevrilir. Bayraqların cansız əşya kimi görsən-




məsinə varmayın, onlar canlı... Onların düşmənə nifrət hayqırtısını, Vətən övladına şirin laylasını eşidibsinizmi?! Analar, atalar məzar başında daimi qala bilməz, həyatın qanunu bu... İçdən qovrula-qovrula, ürəyində, ağlında itirdiyi ilə danışa-danışa yaşam evinə dönər!.. Heç özü bilmədən Allaha və Bayrağa əmanət edər torpağa tapşırdığı əzizini!.. Bayraq isə... Məzar başında dalğalanan bayraqlar onlara şəhid nəfəsləri gətirən küləklərlə canlanar sanki... Hər növ dalğalanması isə bir mesaj, bir söhbət...

Anaların laylasını oxuyan gördüm mən onları... həzin-həzin! Düşməninə nifrətini çırpına-çırpına ətrafına hayqırdığını gördüm... Coşğu ilə dalğalanıb qəhrəmanlıq dastanını söyləyirdi ətrafına, küləklərlə paylaşırdı Yer üzünə, insanların duyğularına! Hər dalğasının öz səs motivi vardı... Qəhrəmanın qardaşına, bacısına, müəlliminə, sevgilisinə, dostuna, tanıyanların hər kəsinə öz sözünü deyir. Lap qaranlıq düşənəcən məzardakı şəhid balasını tək qoymaq istəməyən anaya, ataya da öz sözünü deyir bu dalğalanma... Bəzən şirin zümzüməli ana laylası, bəzən ata vüqarına layiq coşğulu monoloqu atalara söyləyir bayrağın "coşğulu dalğası"!

O gün eşitdim bayraq dalğasının səsini... Həkim Aqşinimizin məzar başındakı bayrağını dinlədim. Qəlbim ilə danışdı Bayraq! Aqşinimin həyat dolu arzularından, igidliyindən danışdı, sevgisindən danışdı... ölməzliyin yaşam tərzindən... əbədiliyin həyat yolundan... zirvə fatehlərinin zəfər yürüşündən danışdı. Həm də dedi ki, zəhmətkeş bir ailənin övladı olan bu gənc gəncliyinin ən gözəl çağlarını insanlıq və xeyirxahlıq niyyətlərində, ağır döyüşlərdə, qəhrəmanlıq meydanında, döyüş şücaətlərində başa vurdu, qorxmazlığı, qüruru, insanlığı təsdiqlədi. Oktyabrın birinci ongünlüyünün sonuncu günü şəhid balamızın cənnətdəki ikinci doğum günü idi. Həmişə olduğu yaşda - bahar ömründə qalan, arzuları nakam, istəkləri qəlbində donan əbədiyaşar, Vətən tarixini yenidən yazan zirvə sakinimiz!

Həmçinin bayraq laylasında ağrılı pıçıltıyla polkovnik-leytenant Əfqan Abdurahmanovun, əsgər Elməddin Mustafayevin və İmaməddin Yusifovun şəhadətə qovuşduğu gün olduğunu da bildirdi. Qəbələnin ən acılı günü idi bu tarixi gün!.. 3 igidini itirdiyi gün...

Zirvələrdədir Onlar! Könüllərdə, ürəklərdə özlərinə əbədi məskən salmışlar! Biz bu gün elə yaşamalı, elə yaşatmalıyıq ki, onların nə qədər ki, bayraq yaşar, ONLAR yaşasın! Nə qədər ki, vətən vətəndir, onlar da Vətənin mərd övladları kimi tanınsın. Axı vətənin vətənləşməsinin özül imzasıdır bu şəhidlər!!!

Bayrağımız laylay deyirdi bu körpələrinə, gözlərində, qəlblərində arzu-istəkləri donan vətən fədailərinə! Ana laylasının özül olduğu bir layla... Azərbaycan bayrağının hər həzin dalğası şəhid laylası!..

Məkanınız cənnət olsun, eloğlularım! Və onların timsalında cəmi vətən fədailəri, şəhadət sakinləri!

**BİBİXANIM.**

## Şəhidlərin xatirəsinə

2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsində rəşadətli ordumuz mənfur ermənilərə ağıllı bir dərs verdi. 44 gün davam edən bu döyüşlərdə əsgərlərimiz öz hünərlərini göstərdilər. Qəbələmizin döyüşkən oğulları da bu döyüşlərin önündə getdilər. Aydınqışlaq kəndinin vətənpərvər oğlu Sahil Rəsulzadə də Vətənin dar günündə könüllü olaraq əlinə silah aldı. Sahil Ağdərə, Suqovuşan və Talış kəndi istiqamətində gedən döyüşlərin önündə gedib. Bum qəsəbəsindən olan Adəm Heydərov, Seyidqışlaqdan olan Əsəd Zeynallı və Şəfili kəndindən olan Azər Musazadə oktyabrın 13-də onun yanında şəhadətə qovuşublar.

Sahil Rəsulzadə olduqca səmimi və vətənpərvər oğuldur. O, rayon mərkəzindəki "Şah dönər" dönərxanasında çalışır. Sahilin iş yerində şəhidlərə həsr olunmuş guşə diqqəti cəlb edir. Mərd döyüşçü həm də xeyirxah oğlandır. O, hər an döyüş yoldaşlarını xatırlayır, şəhidlərin ruhunu şad etməyə çalışır. S. Rəsulzadə 27 sentyabr anım günündə şəhidlərin xatirəsinə dönərxanasının qarşısında ehsan paylamışdır.

**Emin BARATOĞLU,**
**Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü.**